QANUN № 06 (380), 2026, s. 5-11

Hüseynov Əbülfəz İbrahim oğlu,
hüquq üzrə elmlər doktoru, Bakı Dövlət Universitetinin əmək və ekologiya hüququ kafedrasının professoru
Ünvan: Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 33
E-mail: abulfaz.h@mail.ru

UOT 340.1
DOI: https://doi.org/10.30546/2218-9130.060.2026.0101

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ HÜQUQUN İNKİŞAFININ TENDENSİYALARI

Açar sözlər: *hüquq, qloballaşma, inkişaf, tendensiya, şərait.*

Ключевые слова: *право, глобализация, развитие, тенденции, условия.*

Keywords: *law, globalization, development, trends, conditions.*

Son zamanlar hüququ və qloballaşma məsələləri elmi diskussiyanın mərkəzinə çevrilmişdir. Məsələn, M.N.Marçenko qloballaşma prosesinin bütövlükdə hüquqa təsirinin aşağıdakı xüsusiyyətlərini göstərir: qloballaşmanın hüquqa təsirinin müxtəlifliyi və onun təsirinin sistemliliyi; qloballaşmanın hüquqa və onun nəzəriyyəsinin inkişafı prosesinə fundamental və tam radikal təsir etmək xarakteri; qloballaşmanın hüquqa və onun nəzəriyyəsinə təsirinin və formalarının yollarının müxtəlifliyi; qloballaşma prosesinin nəinki milli (dövlətdaxili), eləcə də beynəlxalq hüquqa birbaşa və bilavasitə təsiri; qloballaşmanın hüquqa təsirinin hüdudlarının mövcudluğu və s.

Qərb tədqiqatçıları "fundamental dəyişikliklərin" potensial və imkanlar labüdlüyü şəraitində hüquqda "plüralist nəzəriyyənin" tətbiqinin zəruriliyini irəli sürürlər [12, s. 37].

Qərb alimləri qloballaşmanın hüquqa və onun dərkinin metodologiyasına təsirinin minimum olaraq aşağıdakı üç istiqamətini göstərirlər: qloballaşmanın milli hüquq sistemlərinin bir-birləri ilə münasibətlərinə təsiri; əsasən ingilis-sakson hüququnda baş verən dəyişikliklər (daxili hüquq qaydası ilə yanaşı dünya (qlobal) hüquq qaydasına üstünlük verilməsi); qloballaşmanın bir hadisə kimi hüquqdan çox onun nəzəriyyəsinə və metodologiyasına təsiri.

Sonuncu ilə bağlı olaraq hesab olunur ki, klassik hüquq nəzəriyyələri "dəyişiləcək" və əsasını yeni hüquqi mədəniyyət təşkil edən yeni "hüquqi modellər" yaranacaq [1, s. 711].

Qərb alimlərinin qloballaşmanın hüququn nəzəriyyəsi və metodologiyasına təsiri istiqamətlərinin müəyyən edilməsinin əsas çatışmazlığı onun ancaq hüquqi materiyanın xarici tərəflərinə aid olmasındadır (müxtəlif hüquqi massivlər onun yayılması coğrafiyası və s. arasında münasibətlərin xarakteri). Lakin, qloballaşma hüququn daxilində baş verən proseslərə (məzmun, forma, sosial mahiyyət və s.) təsir edir. Bu özünü aşağıdakılarda göstərir: qloballaşma nəinki milli, habelə fövqəlmilli, qlobal, yəni transkorporasiyalar, beynəlxalq banklar, dövlətlərarası birliklər və çoxlu sayda qeyri-hökumət təşkilatlarının hüququn mahiyyətinin dəyişilməsinə təsir edir.

Milli və beynəlxalq hüququn sosial mahiyyəti dəyişilir. Sovet hüquq ədəbiyyatında hüququn mahiyyəti onun sinfiliyində (hakim sinfin

maraq və mənafelərinin müdafiəsi) idisə, hazırda ümumbəşəri maraqlar üstünlük təşkil edir. M.N.Marçenkoya görə sinfi və ümumbəşəri maraqlarla yanaşı, qloballaşma milli hüququn sosial mahiyyəti və məzmununa yeni bir elementi də - xarici marağı da gətirir [12, s. 67]. Bu xarici marağın daşıyıcıları isə nəinki sənaye cəhətdən inkişaf etmiş ölkə, eləcə də transmilli kapitaldır.

Analoji proseslər beynəlxalq hüquqda da baş verir. Belə ki, əgər Sovet İttifaqı dövründə dünyanın ikiqütblülüyü şəraitində beynəlxalq hüququn sosial mahiyyəti dövlətlərin iradələrinin razılaşdırılması ilə seçilirdisə, XX əsrin 90-cı illərində–XXI əsrin əvvəllərində dünyanın birqütblülüyü şəraitində isə təkcə bir dövlətin – ABŞ-ın – iradəsi beynəlxalq hüquqda üstün idi. Lakin, hazırda beynəlxalq hüquqda birqütblülük tədricən aradan qalxır və beynəlxalq hüququn subyektlərinin razılaşdırılması meylləri seçilir.

İkinci, qloballaşma nəinki hüququn mahiyyətinə, həm də onun məzmununa, institusional və funksional roluna, həmçinin onun qarşısında duran vəzifə və məqsədlərinə təsir edir.

Bu texniki-yuridik baxımdan iki yolla baş verir: qlobal və regional səviyyəli standartların milli hüquqa gətirilməsi; milli hüquqi standartların fövqəlmilli standartlara uyğunlaşdırılması. Digər tərəfdən, qloballaşma proseslərinin nəticəsində hüququn məqsədləri, vəzifələr də dəyişilir və burada milli (dövlətdaxili) deyil, fövqəlmilli vəzifə və məqsədlər üstünlük təşkil edir. Üçüncü, qloballaşma prosesi qlobal, regional və milli (dövlətdaxili) səviyyədə hüququn forma və ya mənbələrinə də təsir edir. Regional səviyyədə bu özünü, məsələn, Avropa İttifaqının, Avrasiya Birliyinin müxtəlif müqavilələrində göstərir. Eyni zamanda, qloballaşmanın təsiri ilə milli hüquq sistemində hüququn mənbələri sırasında müqavilələrin əhəmiyyəti və rolu artır, məhkəmə presedentləri faktiki tanınır və tətbiq edilir, Prezident fərmanları normativ hüquqi aktlar sistemində özünəməxsus yer tutur, beynəlxalq hüququn ümumtanınmış norma və prinsipləri və beynəlxalq müqavilələr milli hüququn tərkibinə daxil edilir. Dördüncü, qloballaşma hüquq yaratma, hüquq tətbiqetmə və hüquq mühafizə proseslərinə təsir göstərir. Burada söhbət "texnoloji", "texniki-yuridik"dən çox, məsələnin dövlət institutları ilə yanaşı, fövqəlmilli və regional institutların cəlb edilməsini müəyyən edən institusional tərifindən gedir.

Qloballaşma ictimai həyatın sahələrində və institusional planda müxtəlif ölçülərdə baş verir. Bu, özünü qlobal və regional səviyyədə yeni subyektlərin yaranmasında göstərir (BMT, YUNESKO, BVF, Haaqa Məhkəməsinə bənzər məhkəmələr, beynəlxalq banklar, İNTERPOL kimi hüquq mühafizə institutları və s.).

Qloballaşmanın hüquqa təsirinin digər üsulları və istiqamətləri də vardır. Belə bir faktı nəzərə almamaq olmaz ki, dünyada müxtəlif xalqlardan, siniflərdən, təbəqələrdən asılı olaraq qloballaşmanın və onun nəzəriyyəsinin əsasını təşkil edən vahid universal sosial ideal yoxdur. Məsələn, ABŞ-ın hüquq və dövlət sisteminin ilkin mərhələsində pozitivizm hansısa sosial idealizmin hüquqda təcəssümü kimi özünü göstərirsə, real həyatda, hüquqyaratma və hüquqtətbiqetmədə "sosial idealın təcəssümü" kimi cəmiyyətin müxtəlif təbəqələrinə nisbətən, xüsusən qullara, tamamilə seçkili reallaşmışdır [3, s. 89].

Digər hüquq nəzəriyyələri ilə bağlı da analoji hallar mövcuddur. Məsələn, "hüququn hökmranlığı" (Rule of Law) nəzəriyyəsinin (prinsipi) əsasını bütün vətəndaşların qanun qarşısında formal bərabərliyi təşkil edir. Bu prinsipə görə nəzəri cəhətdən dövlət hakimiyyəti "xalqın hakimiyyəti" tərəfindən həyata keçirilir və xalqa xidmət edir, faktiki olaraq isə hər şey əksinədir. Bu nəzəriyyədə də müəyyən sosial ideal özünü göstərir. Lakin burada o, "hüququn hökmranlığı" nəzəriyyəsi ilə birgə praktikanın göstərdiyi kimi, əksər hallarda cəmiyyətin üzvlərinə nisbətən tamamilə seçkili həyata keçirilir və

bəzən yuridik fiksiyadan başqa bir şey olmur. Bəzi xarici müəlliflər "hüququn hökmranlığı" nəzəriyyəsinin anarxiyaya qarşı durduğunu bildirsələr də və bu mənada cəmiyyətin bütün üzvləri tərəfindən "öz" konsepsiyaları kimi qəbul olunmalıdırsa da, bununla belə, cəmiyyətin maddi və digər təbəqələşməsi baxımından "qanunvericinin hüququn hökmranlığının ideal modelini" yaratması mümkün deyil. Beləliklə, bu və ya digər hüquqi nəzəriyyənin əsasını müəyyən ideal təşkil etdikdə və ümumi kimi bəyan edildikdə o, elə belə (bəyannamə) olaraq da qalır. Hüquq sahəsində ənənəvi və ya yeni konsepsiyalardan asılı olmayaraq onların əsasında abstrakt sosial ədalət, sosial idealdan çox, tam müəyyən olunan sosial-sinfi, qrup (klan), oliqarxiya və s. maraqlar durur.

Əlbəttə ki, siyasi-ideoloji planda qlobal hüquq (metahüquq) və onun əsasında formalaşan nəzəriyyə ədalət etalonu qismində və sosial ideallara nail olmağın daha səmərəli vasitəsi kimi görünə bilər. Lakin bunun nəticəsində bu fenomenin mahiyyəti və məzmunu dəyişəcəkmi?

Qərb hüquq ədəbiyyatında qloballaşmanın hüquqa və onun nəzəriyyəsinə təsiri ilə bağlı "hüququn özündə və nəzəriyyəsində müxtəlif səviyyələrdə fundamental dəyişikliklərin dərkinə plüralist yanaşmadan istifadə edilməsi barəsində fikirlər səslənir. Bu zaman "ciddi pozitivizm" ənənəvi konsepsiyasının yerinə pozitiv hüququn müddəaları ilə yanaşı təbii hüququn "müəyyən minimumları"nı özündə birləşdirən "yumşaq" pozitivizmlə əvəzləmək və istifadə etmək barəsində geniş danışılır [5, s. 202].

Transformasiya edilmiş milli və beynəlxalq hüququn bazası əsasında qlobal hüququn (metahüquq) formalaşması və bu zaman, hüququn və əxlaqın normativ tənzimləmədə "dolaşıqlığına" və hüququn səmərəliliyinin aşağı düşməsinə gətirib çıxaran, xüsusən müqavilə hüququnda "əxlaqi frazeologiyadan istifadəyə" yol verilməməsi haqqında ideya inkişaf edir [6, s. 35-36].

Hüquq sistemi isə bu "riyazi sistem kimi qüvvədə olmalıdır". Digər ideya və konsepsiyaların da olmasına baxmayaraq onlar ancaq hüquqi hadisələrin və onun əsasında formalaşan hüquqi nəzəriyyənin zahiri, formal tərəfinə toxunur.

Məsələnin mahiyyəti qlobal hüququn və onun nəzəriyyəsinin necə formalaşması və inkişaf edəcəyindən çox bu hüququn və onun nəzəriyyəsinin sosial təbiətinin və təyinatının necə olmasında, ilk növbədə dünya birliyinin hansı təbəqələrinin maraqlarını müdafiə etməsindədir.

Qloballaşma şəraitində hüququn əsas tendensiyalarını təhlil edərək M.N.Marçenko, aşağıdakı müxtəlif kateqoriyalar əsasında təsnifatlaşdırır: bu və ya digər tendensiyanın forma və təzahür dərəcəsi (formalaşan, aydın ifadə olunan tendensiya); tendensiyaların təzahür səviyyəsi (qlobal, regional milli); hüdudlarında tendensiyaların meydana gəldiyi və inkişaf etdiyi hüququn sahəsi və ya institutu, həyat sahəsi və s.

M.N.Marçenko hüququn və onun nəzəriyyəsinin inkişaf tendensiyalarına qlobal, regional və lokal səviyyədə yanaşaraq qlobal və regional səviyyədə hər şeydən əvvəl hüququn universallaşdırılması və unifikasiyasını ayırır [12, s. 79].

Universallıq və unifikasiya daha çox qlobal və regional səviyyədə, əsasən ticarət, biznes, maliyyə və s. sahədə özünü göstərir. Lakin, bu proses eyni cür baş vermir. Belə ki, Aİ-də unifikasiya və universallıq özünü daha aydın, digər regionlarda isə daha zəif təzahür etdirir. Həmçinin inteqrasiya sahəsində Aİ-də inteqrasiya yüksək səviyyədədirsə, MDB-də aşağı səviyyədədir. İnteqrasiya daha çox və parlaq şəkildə qlobal səviyyədə təzahür edir və qloballaşmanın vacib elementinə çevrilir. Qloballaşmanın səviyyəsi məhz inteqrasiyanın səviyyəsindən asılıdır.

Dövlətlərarası və fövqəldövlət səviyyəsində qəbul edilən normativ hüquqi sənədlərin təhlilindən göründüyü kimi qloballaşma şəraitində tendensiyalardan biri də ictimai münasibətlərin

tənzimləyicisi kimi hüquq prinsiplərindən istifadə ilə bağlıdır. Burada, tək beynəlxalq deyil, həm də qarşılıqlı münasibətlərin (qloballaşmanın subyektləri arasında) prinsipləri nəzərdə tutulur.

Qərb ədəbiyyatında dövlətlə transmilli korporasiyalar arasında, məsələn, tərəfdaşlıq prinsipi, ümumi iqtisadi, maliyyə və s. problemlərin həllində kooperasiya prinsipi, qloballaşma subyektlərinin nisbi müstəqilliyi prinsipi, qlobal idarəetmənin həllində əməkdaşlıq və qarşılıqlı yardım prinsipi və s. ayrılır [8, s. 46]. Lakin bəzi prinsiplər son dərəcə formal xarakter daşıyır. Məsələn, sülh və insan hüququnun təmini işində dövlətlə transmilli korporasiyaların tərəfdaşlığı prinsipi əsasında "qaynar nöqtələrə" silah satışı üzrə transmilli korporasiyaların kapitalının faydalılığını təsəvvür etmək çətindir.

Bununla belə, qlobal və regional səviyyədə tənzimləmə sistemində konkret normalar yox, ümumi prinsiplər daha çox yer tutur.

Milli hüquq sistemlərində ümumi prinsiplər (obyektiv hüququn müddəalar-qaydalar) məhkəmə praktikasında məcburi olaraq tətbiq edilir və kifayət qədər ümumi xarakter kəsb edir. AR Konstitusiyasında göstərilir ki, beynəlxalq hüququn ümumtanınmış prinsipləri beynəlxalq hüququn və beynəlxalq müqavilələrin normaları ilə yanaşı "onun hüquqi sisteminin tərkib hissəsidir".

Dövlətin və hüququn ilkin və daha sonrakı inkişaf mərhələlərində, xüsusən feodal pərakəndəliyi şəraitində müxtəlif hüquq mənbələri sırasında adət əhəmiyyətli rol oynamışdır. Sonrakı dövrlərdə ərazi və əhali baxımından əhəmiyyətli inkişafın formalaşması şəraitində adət öz əhəmiyyətini itirərək, qanun tərəfindən "sıxışdırıldı".

Qloballaşmanın tərkib elementlərindən biri kimi inteqrasiyanın təsiri ilə hazırda tənzimləmə sistemində öz üstün rolunu saxlayaraq, xüsusən roman-german hüququnda qanun, nəinki milli, eləcə də fövqəlmilli məhkəmələr tərəfindən yaradılan hüquq presedent hüquqi müqavilə "ümumtanınmış prinsiplər", "ümumi prinsiplər" vasitəsi ilə "sıxışdırılır". Bunlara əvvəllər adət və müqavilədən asılı olmayaraq "xalis tamamlayıcı", "beynəlxalq hüququn üçüncü mənbələri" kimi baxılırdı, hazırda isə bəzi ölkələrdə hətta milli hüququn mənbələri hesab olunurlar.

Hüquq ədəbiyyatında milli, regional və qlobal səviyyələrdə tənzimetmə sisteminin prinsipləri kimi aşağıdakılar göstərilir: norma-prinsiplər; qanunvericilikdə təsbit olunmuş prinsiplər; ümumi hüquqi prinsiplər (bərabərlik, ədalət, humanizm və s.); sahələrarası prinsiplər; ümumsosial prinsiplər; xüsusi-yuridik (qanunçuluq, təqsirli hüquqazidd hərəkətə görə məsuliyyət; hüquq və öhdəliklərin uzlaşması və s.) prinsiplər qanunvericilikdə birbaşa təsbit edilməyən prinsiplər və s. [9, s. 8].

Qlobal və regional səviyyədə hüququn prinsipləri dedikcə fəal rol oynamaqdadır. Prinsiplər (norma-prinsiplər və ya prinsip-normalar) daha ümumiləşdirilmiş səviyyədə malik olaraq adi hüquq normaları, norma-ideya, norma-definisiya (tərifl ər), norma-bəyannamələr və digər tənzimləyicilərlə regional və qlobal səviyyədə qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər.

Məhkəmə hüququ, onunla birlikdə mənbələr qismində onun məhkəmə presedenti və praktikasının əhəmiyyəti və rolu getdikcə güclənir. Qloballaşma şəraitində "hüquq getdikcə mürəkkəb bir sistemə çevrilir", çünki hər şeyi qanunla nəzərdə tutmaq mümkün deyil, belə ki, bəzi məsələlərdə məhkəmə praktikasının rolu labüd olaraq yüksəlir" [10, s. 11].

Bu meyil məhkəmə presedentinin əsas mənbə olduğu ümumi hüquqla yanaşı, roman-german hüququ da daxil olmaqla digər hüquqi sistemlərdə də müşahidə olunur. Məhkəmə hüququ milli hüquq sistemləri və hüquq ailələrindən başqa müvafiq məhkəmə orqanlarının fəaliyyəti ilə bağlı olaraq regional səviyyədə də özünü göstərir.

Bu baxımdan qərb hüquq ədəbiyyatında müasir dünyada vahid "qlobal yurisprudensiya" formalaşdırılır. Onun məqsədi aşağıdakılardır: hüququn universallaşması və unifikasiyasına "kömək etmək; "milli və lokal mədəniyyətlərin hüquqi əsaslarını qorumağa cəhd etmək; "fərdin muxtarlığı ilə ədliyyənin səmərəli idarəetməsi, bununla birgə səhiyyə sistemi arasında "dəyərlər balansını təmin etmək" [11, s. 113].

"Əmtəənin bir ölkədə istehsal edilməsi, digər ölkədə isə satılmasından" irəli gələrək "qlobal iqtisadiyyatın qlobal mübahisələri şərtləndirilməsindən" çıxış edərək qərb tədqiqatçıları bu əsasda nəinki "qlobal yurisprudensiya", habelə "məhkəmələrin qlobal birliyi"nin yaradılması ideyasını inkişaf etdirirlər.

Belə birliyin yaranmasının əsas prinsipləri, onların fikrincə, aşağıdakılar olmalıdır: a) həm şaquli, həm də üfüqi təşkil olunmuş müxtəlif məhkəmə instansiyaları arasında "çəkişmə və qarşılıqlı tarazlıq" prinsipi; "pozitiv münaqişə" prinsipinin tanınması (məhkəmə qaydasında mübahisənin həlli zamanı tərəflər qarşılıqlı güzəşt edir və bir-birinə yaxınlaşırlar; b) bu və ya digər mübahisələrin həlli və konkret baxılması zamanı "müxtəlif yanaşmaların legitimliyi və plüralizm prinsipi"; c) cinayət və inzibati işlərə baxılması zamanı məhkəmə instansiyalarının məcburetmədən daha çox "inandırma və oyandırma" metoduna üstünlük verirlər [12, s. 217].

Bu və ya digər ölkədə rəsmi tanınmasından və ya tanınmamasından asılı olmayaraq, məhkəmə hüququnun və onun mənbələrinin rolu getdikcə güclənir. Lakin, məsələn, M.İ.Baytin RF Konstitusiya Məhkəməsinin qərarları mənbədirmi sualına qəti olaraq "yox" cavabı verir [9, s. 4-12].

Qloballaşma şəraitində hüququn inkişafının tendensiyalarından biri də insan və vətəndaş hüquqları ilə bağlıdır. Bu kifayət qədər konvensiyalarda öz təsbitini tapmışdır. Məsələn, irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası və s.

Bu sahədə xüsusi milli dövlətlər səviyyəsində qanunlar da qəbul edilir. Beləliklə, bütün bunlar insan hüquq və azadlıqlarına aid qanunvericiliyinin genişlənməsi və inkişafı tendensiyasını göstərir.

Yuxarıda göstərilənlərdən başqa, şəxsiyyətin yuridik statusu, nəinki onun maddi-maliyyə, eləcə də onunla bağlı, sosial vəziyyəti ilə və bürokratik iyerarxiyada onun rolu və yeri ilə bağlı cəmiyyətdə şəxsiyyətin hüquqlarının müəyyən iyerarxiyası ilə bağlı tendensiya da özünü göstərir. Bununla yanaşı, ümumi hüququn xüsusi hüquqa daha çox "müdaxiləsi", ümumi hüquqla xüsusi hüququn arasında hədlərin tədricən "silinməsi" ilə bağlı tendensiyanı da göstərmək lazımdır. Qloballaşma şəraitində "müxtəlif hüquq sahələrində xüsusi-hüquqi və ümumi-hüquqi tənzimlənmə metodlarının uzlaşması", qanunvericilikdə isə ictimai münasibətlərin normativ tənzimlənməsinin kompleksliliyinin getdikcə güclənməsi ilə bağlı tendensiya da özünü göstərir [14, s. 11].

Tendensiyalardan biri də qlobal, milli və regional səviyyədə hüququn siyasiləşməsi ilə bağlıdır Belə ki, bütövlükdə hüquq və xüsusən ümumi hüququn daha çox siyasi xarakter daşıması özünü göstərir. Tədqiqatçıların əsassız olmayaraq qeyd etdikləri kimi konstitusiya və rəsmi sənədlərdə hüquqi dövlətdə hüququn hökmranlığı təsbit edilsə də, reallıqda "hüququn və siyasətin toqquşması halında üstünlük, əksər hallarda, siyasətin tərəfindədir.

Aşağıdakı tendensiyalarda göstərmək olar: beynəlxalq hüququn regional və milli hüquqla qarşılıqlı əlaqəsi və qarşılıqlı təsirinin dərinləşməsi, burada beynəlxalq hüququn regional və milli hüquq sisteminə daxil olmasının genişlənməsi; siyasi, iqtisadi və s. qlobal sistemlərlə yanaşı "planetar miqyaslı hüquqi sistemin" formalaşması (müharibədən sonrakı dövrdə so-

sial qanunvericiliyin inkişafı və s.), hüququn sosiallaşması.

Qlobal və regional səviyyədə tendensiyalar lokal səviyyəli tendensiyalarla tamamlanır (hüququn ayrı-ayrı sahələri, hətta institutları səviyyəsində).

Buna misal olaraq əmək, kommersiya və digər hüquq sahələrinə müvafiq olaraq son onilliklərdə əmək, ticarət və müxtəlif ölkələrin ictimai həyatının digər sahələrində vahid tələblərin və standartların tətbiq və işlənilməsini göstərmək olar. Belə standartları ifadə edən BƏT, UTT və digər fövqəldövlət və dövlətlərarası təşkilatların aktlarında ifadə edilmişdir.

Konstitusiya bir fundamental akt kimi ancaq milli hüquqi sistemin hüdudlarında "aliliyə" malikdir. Buradan da, demək olar ki, qloballaşma prosesinin təsiri ilə formalaşan "planetar" hüquq sistemi dualist və monistdənsə "hər şeydən əvvəl multilokal" olacaqdır. Bu zaman isə gələcəkdə konstitusiyaya "ancaq suveren milli dövlət hüdudlarında ali yuridik qüvvəyə malik akt kimi" baxılması aradan qalxacaqdır.

Milli konstitusiyanın hazırkı statusuna gəlincə isə, milli konstitusionalizmin fövqəlmilli, qlobal konstitusionalizmə transformasiyası tendensiyasının tərəfdarlarının fikrincə, dövlətin milli suverenliliyi itirildikcə, milli konstitusiyalar da ali yuridik əhəmiyyətini itirərək adi normativ hüquqi akta çevriləcək. Bu konsepsiyanın və tendensiyanın mahiyyətinə toxunmayaraq qeyd edək ki, bu, hazırda real olmasa da milli regional və qlobal səviyyədə hüququn əsas inkişaf istiqamətləri haqqında ümumi təsəvvürləri formalaşdırır.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Bennet J. Public Private Partnerships: The Role of the Private Sector in Preventing Funding Caifeich //Vanderbilt Journal of Transnational Law. – 2002, №2, – Vol, 35, – p. 711-727
2. Haughter A.Global community of courts //Harvard İnternational Law Journal. 2003, Vol.44, №1. p.217-228
3. Holmes O. The Path of the Law //Harvard Law Review. – 1997, №5, – p. 996, c.141
4. Sehok L.Legal pozitivizm and Amerikan Slave Law: The Case of Chief Justice Shawvnni, us I(ed). Recraftung the Rule of Law: The Limits of Legal Order, – 2018
5. Slaughter A.A. Global Community of Courts ||Harvard International Law Journal. – 2003, – Vol, 44, №1. – p.202-203
6. Twining W. Globalisation and legal Theory L. – 2000, – 289 p.
7. Wet E. The International Constitutional order //International and Comparative Law Quarterly/ – 2006, – Part. p.52.
8. Байтин М.И. О принципах и функциях права: новые моменты //Правоведение. – 2000, №3, – с.5-7
9. Байтин М.И. О юридической природе решений Конституционного Суда Российской Федерации // Государство и право, – 2006, №1, – 4-12
10. Бобылев А.И. Понятие, принципы и функции прав //Право и политика, – 2004, №4, – с.9-11
11. Лукашук И.И. Глобализация и право // Государство и право, – 2005, №12, – с.113-118
12. Марченко М.Н. Государсто и право в условиях глобализации. – М.: Проспект, – 2009. – 376 с.
13. Правовая система в условиях глобализации и региональной интеграции: Теория и практика /отв ред. С.В.Поленина. – М., – 2006, – 286 с.
14. Теоретические и практические аспекты развития правовой системы РФ в условиях глобализации // Государство и право, – 2005, №12, – с.11

Гусейнов Абульфаз Ибрагим оглу,
доктор юридических наук, профессор кафедры трудового и
экологического права Бакинского государственного университета

ТЕНДЕНЦИИ В РАЗВИТИИ ПРАВА В КОНТЕКСТЕ ГЛОБАЛИЗАЦИИ

РЕЗЮМЕ

В статье раскрывается широкий круг вопросов, касающихся воздействия процессов глобализации и регионализации на современное государство и право. Рассматриваются методологические проблемы познания государственно-правовых явлений в условиях глобализации, вопросы соотношения государства и гражданского общества, государства и бизнеса, проблемы юридической и социально-политической ответственности бизнеса. Особое внимание уделяется основным направлениям воздействия глобализации на развитие права и его теории, эволюции правовых систем и семей, а также тенденциям развития прав человека на современном этапе и проблемам их универсализации в условиях глобализации.

Huseynov Abulfaz Ibrahim,
Doctor of Laws, Professor, Department of Labor
and Environmental Law, Baku State University

TRENDS IN THE DEVELOPMENT OF LAW IN THE CONTEXT OF GLOBALIZATION

SUMMARY

The article explores a wide range of issues related to the impact of globalization and regionalization on the modern state and law. It examines methodological challenges in understanding state and legal phenomena in the context of globalization, the relationship between the state and civil society, the state and business, and the legal and socio-political responsibility of business. Particular attention is paid to the main areas of globalization's impact on the development of law and its theory, the evolution of legal systems and families, as well as current trends in the development of human rights and the challenges of their universalization in the context of globalization.

Redaksiyaya daxilolma tarixi: 27.05.2026
Təkrar işlənməyə göndərilmə tarixi: göndərilməyib
Çapa qəbul olunma tarixi: 10.06.2026